Yeni Azərbaycan.- 2022.- 19 may.- S.8.




*MÜŞFİQƏ*

# “Bəhlul” satirik jurnalı - 115

115 il öncə bu gün Bakıda “Bəhlul” satirik jurnalı nəşrə başlayıb. Jurnalın adı xalq arasında məzmunlu lətifələri ilə məşhur olan Bəhlul Danəndədən götürülüb. “Molla Nəsrəddin” jurnalından sonra Azərbaycanda çıxan ilk satirik jurnallardan biri də “Bəhlul”dur. Dərginin cəmi 9 sayı işıq üzü görsə də, Azərbaycan mətbuatını və ədəbiyyatı tarixini öyrənmək üçün əhəmiyyətli mənbədir. M.Ə.Sabirin bir neçə şeiri (Bəhlul Danəndə haqqında) ilk dəfə bu dərgidə dərc olunub. Jurnalın redaktoru M.Ə.Sabirin yüksək istedadını nəzərə alıb onu jurnalla əməkdaşlığa dəvət etmişdi. Şairin “Bəzi yerlərdə təsadüf olmur aşa, ətə”, “Mən belə əsrarı qana bilmirəm”, “Təraneyi-əsilanə” adlı satiraları ilk dəfə bu jurnalda çıxmışdı.

Həftəlik satirik jurnal Ələsgər Əliyevin redaktorluğu, Seyid Hüseynin əməkdaşlığı ilə “Kaspi” mətbəəsində nəşr edilib. Ələsgər Əliyev Azərbaycanın görkəmli inqilabçı və maarifpərvər xadimlərindən biri idi. O, daim mətbuatda inqilabi-publisistik məqalələrlə çıxış edirdi.

Jurnalda “Teleqraf xəbərləri”, “Ümumi xəbərlər”, “Elan”, “Poçt qutumuz” və sair kimi rubrikalara və bəhri-təvil, felyeton, şeir, sual-cavab və başqa janrlara rast gəlinir.

Burada Ə.Əliyev (“Bəhlul”), Ə.Razi (“Düdük”), M.H.Zeynalov (“Dərdmənd”) kimi müəlliflər ilə yanaşı, “Duzəxi”, “Mirzə Dığ-dığı”, “Naxələf”, “Heyrəti”, “Yuxulu”, “Bambulu”, “Tamaşa bağı”, “Fırıldaq”, “Titrətməli”, “Ə.M”, “Ağızları qıfıldayan”, “Maryak”, “Carübüddövlə”, “Bitli bədən”, “Laübali”, “İpləmə”, “Zurnaçı”, “Şalvarün-Zakirin”, “Müahidi Qədim”, “Əqrəb”, “Qeydkeş” və sair gizli imzalardan da istifadə edilib.

**Molla Nəsrəddin və Bəhlul Danəndə bənzərliyi**

Harun ər-Rəşidin qardaşı olan Bəhlulun tarixi şəxsiyyət olmasına baxmayaraq o, Yaxın Şərqdə Molla Nəsrəddin kimi əfsanələşdirilmişdi. “Bəhlul” jurnalı da forma etibarı ilə də “Molla Nəsrəddin”ə bənzəyirdi. Jurnalın nömrələrində “Molla Nəsrəddin”ə dair maraqlı materiallar verilirdi. Hər iki jurnalın əməkdaşları arasında sıx əlaqə yaranmışdı. “Bəhlul”un zəngin ədəbi-bədii tərtibatı var idi. Oxucuya satirik üslubda ictimai gerilik, dini-fanatizm, ailə və məişətdəki vaxtı keçmiş adət-ənənələr, dövlət idarəçiliyindəki nöqsanlar, varlı-kasıb münasibətləri çatdırılırdı. Bakıda fəhlə hərəkatına köməkdə, dövrün mühüm məsələlərinin işıqlandırılmasında, xalqın maariflənməsi uğrunda mübarizədə böyük xidmət göstərirdi.

Bir sözlə, 6 aylıq ömründə jurnalın misilsiz xidmətləri olmasına baxmayaraq, zamanın çətin sınaqlarına tuş gəldi, nəşri dəfələrlə dayandırıldı. Lakin irticanın təqibi “Bəhlul”u öz yolundan döndərə bilmədi. Onun “Camaata” adlı müraciətində “Molla Nəsrəddin”in bütün islam aləmində ən qabaqcıl ideyaları təbliğ etdiyi və məhz bu səbəbdən mürtəce qüvvələrin onu dağıtmaq, məhv etmək istədiklərini bildirdi. Jurnal “Oyanın! Oyanın!” - deyə xalqa xitabında “Molla Nəsrəddin”i qorumağa çağırdı.

Zəhmətkeş kütlələrin 1905-1907-ci illərdəki inqilabi mübarizəsi geniş işıqlandırdığı üçün jurnal 9-cu nömrədən sonra “zərərli məsləkinə görə” dayandırıldı.

**“Bəhlul” jurnalı yeni təqdimatda**

Azərbaycan mətbuatının 145 illiyi münasibətilə “Bəhlul” jurnalı kitab formatında çap olunub. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin elmi işçisi Dilbər Rzayeva tərəfindən ilk dəfə transfonelitersiya edilib. 146 səhifədən ibarət kitab “Bəhlul” satirik jurnalının ərəb qrafikalı əlifbadan transfonelitersiyasıdır.